

Milli azadlıqdan şirin nemət yoxdur!

# Erməni sakinlər razılıq ifadə ediblər

## Xocalıda növbəti görüş



Bax səh. 3

# Sülhün alternativi yoxdur


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 26 sentyabr 2023-cü il, çərşənbə axşamı / № 174 (6518). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik




# Azərbaycan dövlət suverenliyini tam təmin edib

Bax səh. 2

# Vaşinqtondan Brüsselə, Moskvadan Pekinə kimi...

Bax səh. 4



## Sülhə doğru...

Bax səh. 5

## Yeni Nəsil İqtisadiyyatı Strategiyası hazırlanır

Bax səh. 5

## Gəldikləri kimi də qayıtdılar...

Bax səh. 6

## Xankəndidə Azərbaycan işığı

Bax səh. 6

## İcmadan çağırış

"Fransa Prezidenti Emmanuel Makron sentyabrın 24-də Fransanın "TF1" və "France 2" televiziya kanallarına verdiyi müsahibəsində Azərbaycanı guya Ermənistanın ərazi bütövlüyünə təhdid yaratmaqda ittiham edib və Qarabağda humanitar problemlərin olduğunu bildirib. Xatırladaq ki, Fransa hökuməti son 30 ildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinə, etnik təmizləmə yolu ilə bir milyona yaxın azərbaycanlını evindən qovmasına, Azərbaycan ərazilərinin əhəmiyyətli bir hissəsini viran qoymasına heç vaxt münasibət bildirməyib".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının (QAİ) məsələ ilə bağlı açıqlamasında yer alıb. Açıqlamada, həmçinin bildirilib: "Fransa Ermənistanda bir nəfər də olsun azərbaycanlının qalmamasına göz yumur. Əksinə, Fransa bütün vasitələrlə Ermənistanı müdafiə edərək, onun bu əməllərinə şərik olub. Belə olan təqdirdə, iki ölkə arasında davamlı sülh üçün ümidlər yarandığı bir məqamda Fransa Prezidentinin destruktiv, təhrikçi və yanlış bəyanatı bu dövlətin regionda sülhdə maraqlı olmadığını göstərir.

Biz Fransa hökumətini qərəzli əməllərindən əl çəkməyə, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşmağa, Azərbaycan dövlətinin reinteqrasiya tədbirlərinə maneə olmamağa və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına dəstək verməyə çağırırıq".



## DTX Qarabağın erməni əhalisinə müraciət edib

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra dövlət strukturları tərəfindən ərazidə müvafiq tədbirlər görülür. Görülən tədbirlər sırasında mülki əhalinin təhlükəsizliyinin təmin olunması, onlara humanitar yardımların çatdırılması da diqqət mərkəzindədir.

Qeyd edək ki, sentyabrın 25-də Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisinə müraciət edib. Müraciətdə bildirilir ki, qanunsuz erməni silahlı dəstələrinin tam tərk-silah edilməklə döyüş mövqelərindən çıxarılmasına dair razılıq əldə olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq, erməni əhalinin yaşadığı ərazilərdə əmin-amanlığın, yerli sakinlərin şəxsi təhlükəsizliklərinin və sosial problemlərinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülüb, qanunsuz erməni hərbi birləşmələrinin sərəncamında olan döyüş sursatları Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə götürülüb.

"Dövlət Təhlükəsizliyi Xidməti Qarabağ bölgəsinin erməni sakinlərinə müraciət edərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonuna daxil olan rayonların ümumi inkişafına, həmçinin erməni əhalinin rifahına, sülh şəraitində Azərbaycan cəmiyyətinə...

Bax səh. 6



# Fransa ifşa olundu

Bax səh. 7

# Azərbaycan dövlət suverenliyini tam təmin edib

## Sülhün alternativi yoxdur



### Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına rəsmi səfərə gəlib

Sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Türkiyənin və Azərbaycanın Dövlət himnləri səslənib. Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Daha sonra Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Səfər çərçivəsində İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi keçirilib. Mərasimdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoyublar.

İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan-Türkiyə sənədləri imzalanıb. Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzalayıblar. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Türkiyə Respublikasının ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Mehmet Özhaseki,










## Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası uğurla gedir

"Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar imzalayıblar.

Daha sonra Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev Türkiyə Prezidentinin Naxçıvana ikinci dəfə səfər etdiyini bildirib və vurğulayıb ki, imzalanmış sənədlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcək. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişini qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisə adlandıran Azərbaycan Prezidenti bildirib ki, bu kəmərin çəkilişi bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək: "Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır".

Dövlət başçısı qeyd edib ki, 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilib. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq. "Bir neçə gündən sonra, daha doğrusu, üç gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəkdir və əminəm ki, bu forumun nəticələri uğurlu olacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda, su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır", - deyən Prezident İlham Əliyev vurğulayıb ki, beş gün bundan əvvəl Azərbaycan öz suverenliyini tam təmin edib. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, beş gün əvvəl biz suverenliyimizi tam təmin etdik, bərpa etdik. 24 saat ərzində, ondan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, bizim şərtlərimizi qəbul etdi və beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir: "Beş gün keçməsinə baxmayaraq, artıq Azərbaycandan onun Qarabağ bölgəsinə, orada yaşayan erməni əhalisinə humanitar yardımlar göndərilməsinə başlanmışdır. Yanacaq - neft, dizel, benzin, ərzaq məhsulları, dərman preparatları və digər humanitar yardım edilir və bu, bir daha onu göstərir ki, Qarabağ bölgəsində yaşayan insanlar milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşlarıdır, onların təhlükəsizliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcəkdir. Bir neçə gün bundan əvvəl Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüş keçirilmişdir. Bu gün ikinci görüş keçirilir, onun nəticələri haqqında mənə hələ ki, məlumat verilməmişdir. Ancaq Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya prosesi, əminəm ki, uğurla gedəcək".



"Əziz qardaşım, bu hadisə baş verəndə Siz Amerikada, Nyu-Yorkda idiniz, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz: Qarabağ Azərbaycan torpağıdır. Bu, həm həqiqətdir, eyni zamanda, beynəlxalq hüquqa tam uyğundur. Eyni zamanda, Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır. İkinci Qarabağ müharibəsi zamanı Siz və bütün Türkiyə xalqı bizim yanımızda idi. Müharibənin ilk saatlarında "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməyiniz bir çoxları üçün ciddi siqnal idi, mesaj idi. Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq", - deyən Prezident İlham Əliyev bildirib ki, iki il bundan əvvəl Şuşa şəhərində - uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində Şuşa Bəyannaməsi - müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı. Bu gün bu əlaqələr ən yüksək zirvədədir və bütün istiqamətlər üzrə biz indi əlaqələrimizin çox fəal dövrünü yaşayırıq: "Bu gün təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz xətti - vaxtilə biz Sizinlə TANAP layihəsinin təməlini qoymuşduq, TANAP boru xəttinin açılışını bərabər etmişdik - bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk. Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir. Biz bu gün Sizinlə, eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq və mən Sizə məlumat verdim ki, yaxın aylarda bu yolun imkanları 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər böyük ehtimalla gələn ilin sonunda başa çatmalıdır. Yəni bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birinə bağlıdır, bir-birinə yaxındır. Biz bir-birimizə dəstək verməklə, eyni zamanda, regional məsələləri də düz istiqamətə yönəldirik. Yəni bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin. Azərbaycana göstərdiyiniz dəstək həm İkinci Qarabağ müharibəsi zamanı, həm ondan əvvəl, həm də ondan sonra məhz bu məqsədə çatmaq üçün önəmli amildir".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda həqiqətən tarixi anlar, günlər, illər yaşayırıq. İkinci Qarabağ müharibəsi, tarixi Zəfərimiz, beş gün bundan əvvəl uğurlu əməliyyat nəticəsində suverenliyimizin bərpası tarixi hadisələrdir və haqlı olaraq bununla qürur duyuruq. Bütün istiqamətlər üzrə, o cümlədən ticarət dövriyyəmizin artırılması istiqamətində önəmli addımlar atılıb. Bizim ticarət dövriyyəmiz keçən il 6 milyard dollardan çox olub: "Ancaq bu ilin yeddi ayında 40 faiz daha artmışdır və əminəm ki, daha da artacaq. Düzdür, hədəf çox, yəni yüksək rəqəmlərlə ölçülür. Bir müddət bundan əvvəl 15 milyard dollar ticarət dövriyyəsi hədəfləmişdik. O zaman ticarət dövriyyəsi təqribən 2 milyard dollar idi. Amma indi 6 milyard dolları ötübdür, yəqin ki, yaxın gələcəkdə buna da çatacağıq. Preferensial ticarət anlaşması da imzalanmışdır və o siyahıda olan məhsulların sayı da artır. Ona görə əminəm ki, biz buna da uğurla çatacağıq.

davamı 3-cü səhifədə

# Azərbaycan öz dövlət suverenliyini tam təmin edib





əvvəli 2-ci səhifədə

Əziz Qardaşım, hörmətli qonaqlar, Sizi Naxçıvanda bir daha səmimiyyətlə salamlayıram. Sizə Azərbaycan xalqının hədsiz məhəbbət və sevgisini bir daha ifadə edirəm. Sizə və qardaş Türkiyə xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun”.

Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan prezident seçkilərindən sonra ilk səfərini iyun ayında Şimali Kipr Türk Respublikası ilə birlikdə Bakıya etdiyini bildirib. Bu dəfə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda olmaqdan böyük məmnunluq duyduğunu dilə gətirən Prezident Ərdoğan 2008-ci ildəki son səfərindən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdiyini söyləyib: “Naxçıvanın bugünkü səviyyəyə çatmasında böyük payı olan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi anadan olmasının 100-cü ildönümündə bir daha ehtiramla yad edirəm. Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. “Bir millət, iki dövlət” şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir. Naxçıvan tarix boyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizdə xüsusi yerə sahibdir. Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq”.



Dövlət başçısı vurğulayıb ki, Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizin əhəmiyyəti koronavirus pandemiyası və bölgəmizdə yaşanan müharibələr nəticəsində daha yaxşı dərk edilib. Bu baxımdan bir qədər əvvəl təməlini qoyulan İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə Türkiyənin enerji sahəsində ortaqlığını daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Qars-Naxçıvan dəmir yolu layihəsi ilə yanaşı, yaşayış binaları və elektrik enerjisi ilə bağlı müqavilələrin imzalandığını da bildirən Türkiyə Prezidenti qeyd edib ki, beləliklə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələrimizi inkişaf etdirməklə bağlı iradəmizi bir daha ortaya qoyduq. “Azərbaycanlı qardaşlarımıza 6 fevraldakı zəlzələlərin yaralarının sağalmasına verdikləri güclü dəstək üçün öz adımdan və millətim adından bir daha təşəkkür edirəm. Varınıyoxunu avtomobilinin üzərinə yükləyib millətimizə yardım etmək üçün yola çıxan qardaşlarımızın səmimiyyətini heç vaxt unutmayacağıq. Mətbuata bəyanatlarımızdan sonra modernləşməsini həyata keçirdiyimiz bərpa-istehsalat hərbi kompleksinin açılışını edəcəyik. Bu layihə də müdafiə sənayesi sahəsində əməkdaşlığımıza ciddi töhfələr verəcək. Hörmətli mətbuat nümayəndələri, son günlərdə bölgəmizdə kritik proseslər yaşandı. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra keçən üç ilə yaxın müddətdə dəfələrlə ifadə etdiyi legitim və haqlı narahatlıqları ilə bağlı lazımi cavabı təəssüf ki, tapa bilmədi, nəticədə özünün suveren ərazilərində antiterror tədbirləri həyata keçirmək məcburiyyətində qaldı. Bu tədbirlərin son dərəcə qısa müddətdə, mülki şəxslərin hüquqlarına yüksək həssaslıq göstərilərək uğurla başa çatdırılması bizim üçün qürur mənbəyi olmuşdur. Tədbirlər zamanı şəhid olan qardaşlarımıza Allahdan rəhmət, yaxınlarına başsağlığı diləyirəm. Yaralılarımıza tezliklə şəfa tapmalarını arzulayıram”, - deyən R.T.Ərdoğan söyləyib ki, Naxçıvanın görkəmli şairi, Mehmet Akifin əqidə yoldaşı mərhum Hüseyn Cavidin bir əsr əvvəl etdiyi bu duasının qəbul olunduğunu görməyin xoşbəxtliyini yaşadıq: “

*Hər bəladan əsirgə yurdumuzu,*
*Kamran eylə şanlı ordumuzu...*

Müzəffər Azərbaycan Ordusunu həm tarixi qələbəsi, həm də mülki şəxslərə göstərdiyi humanist davranışı münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanlı qardaşlarımız Türk millətinin ədalət və mərhəmətini bir daha bütün dünyaya göstərmişlər. Son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndirilməli olduğuna inanıram. Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir. Bu düşüncələrlə Can Azərbaycanda olmaqdan duyduğum məmnunluğu bir daha ifadə edirəm. Mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərlik üçün Prezident, qardaşım cənab Əliyevə və azərbaycanlı qardaşlarımıza bir daha təşəkkür edirəm. Rəbbim sevgimizi, qardaşlığımızı daimi etsin”.

Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak ediblər. Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlət başçılarına raport verib. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin rəmzi açılışını bildirən lenti kəsiblər. Dövlət başçılarına hərbi komplekslə bağlı məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi nahar verilib. Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 25-də başa çatıb. Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı yola salıb.





# Qarabağın erməni sakinləri ilə növbəti görüş

## Yevlaxda müzakirə edilmiş məsələlərin həlli ilə bağlı razılıq ifadə olunub

## Erməni sakinlərə səhra hospitalı təşkili təklif edilib

2023-cü il sentyabrın 25-də Xocalı şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşü keçirilib. Konstruktiv mühitdə keçən görüşdə sentyabrın 21-də Yevlax şəhərində müzakirə edilmiş məsələlərin həlli istiqamətində atılan addımlardan, xüsusilə qısa müddətdə humanitar yardımın təminatı, yanacaq təchizatı və elektrik verilişinin bərpasından razılıq ifadə olunub. Qarabağın erməni sakinləri ilə təmaslar üzrə məsul şəxs Ramin Məmmədov bundan sonrakı mərhələdə həyata keçiriləcək tədbirlər haqqında məlumat verib. Qeyd olunub ki, bəzi yaşayış məntəqələrində tənha vəziyyətdə müəyyən edilmiş ermənisilli yaşlı sakinlərə ilkin tibbi yardım göstərilib və onlar həkim nəzarəti altında saxlanılırlar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinin həmin şəxslərlə görüşünə şərait yaradılması, onların ailə üzvlərinə və ya müvafiq tibb müəssisələrinə təhvil verilməsi təklif edilib.



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin sosial-humanitar, iqtisadi və infrastruktur məsələlərin həlli üzrə rəhbərlik etdiyi işçi qrupun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədilə Xankəndi şəhəri də daxil olmaqla, ərazidə kommunal, səhiyyə xidmətləri və digər mülki fəaliyyətlə məşğul olan müvafiq nümayəndələrlə görüşünün təşkili və birgə işçi qrupunun yaradılması barədə razılıq əldə olunub.

Təklif olunub ki, Xankəndi şəhəri yaxınlığında və ya Xocalı istiqamətində qurulması təklif olunan səhra hospitalında səhiyyə xidmətləri Azərbaycan və ermənisilli tibb heyəti tərəfindən birgə təşkil edilsin. Həmçinin Azərbaycan və erməni xidmət personalı tərəfindən mobil qida təminatı xidmətinin yaradılması təklif edilib.

Xroniki ağır xəstəliklərdən əziyyət çəkən və ya xüsusi cərrahiyyə əməliyyatına ehtiyacı olan şəxslərə zəruri tibbi yardımın göstərilməsinə hazırlıq ifadə olunub.

Bununla yanaşı, görüşdə Azərbaycan və ermənisilli tibb işçilərindən ibarət səyyar birgə həkim briqadalarının formalaşdırılması, həmin briqadalar tərəfindən ucqar kəndlərdə tənha və tibbi xidmətə ehtiyacı olan şəxslərə xidmət göstərilməsinin vacibliyi vurğulanıb.

Qarabağ iqtisadi rayonunda yaşayan ermənisilli vətəndaş cəmiyyəti təmsilçiləri və ictimai fəalların Bakıya və ya Azərbaycanın digər şəhərlərinə səfərlərinin təşkil edilməsi təklifi vurğulanıb və bu cür təşəbbüslərin vətəndaş cəmiyyəti dialoqu platformasının yaradılması, eləcə də etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilib.

Görülmüş işlərin yekunlarının müzakirəsi və gələcək addımları müəyyənləşdirmək məqsədilə tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

# HEYDƏR ƏLİYEV TÜRK DÜNYASININ MÖCÜZƏSİDİR

XX əsrin II yarısından başlayaraq türk dünyası tarixində adı fəxrlə qeyd olunan ulu öndər Heydər Əliyev Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Heydər Əliyev qeyri-adi zəkaya, yüksək təşkilatçılıq bacarığına, hadisələri təhlil etmək sahəsində unikal qabiliyyətə malik bir şəxsiyyət idi. Heydər Əliyev dühasının şöhrəti bir xalq, bir ölkə, bir qitə çərçivəsinə sığmayıb, bütün dünyaya yayılmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yer tutması üçün əzmlə çalışmış və buna nail olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Bu dahi şəxsiyyət bütün dünyanın etiraf etdiyi görkəmli liderlərdəndir.

Türkdilli xalqların inteqrasiyası yolunda ulu öndərin müəllifi olduğu təşəbbüslər bu gün geniş coğrafi məkanda əməkdaşlığı genişləndirir. Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Heydər Əliyev demişdir: “Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur”.

Azərbaycan-Türkiyə münasibətlərinin tarixi-siyasi, dini, milli-mənəvi köklərə bağlı sahələrdə sürətli inkişafı Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Heydər Əliyev isə “Biz bir millət, iki dövlətik” fikirlərinə əsaslanmışdır.

Ümummilli lider Heydər Əliyev dövlətçilik fəaliyyətində Atatürkün dövlət quruculuğu təcrübəsinə həmişə böyük əhəmiyyət vermiş və onun irsinin öyrənilməsini vacib hesab etmişdir.

Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı fəaliyyətinə görə beynəlxalq “Atatürk Sülh Mükafatı” təqdim olunması (1999) münasibətilə onun dediyi sözlər Atatürkün və Türkiyənin təcrübəsinin Azərbaycan üçün nə demək olduğunu çox aydın şəkildə belə qeyd etmişdir: “Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq qalacağam”. [“Respublika” qəzeti, 2 noyabr, 1999]

Atatürkün irsini öyrənmək və təbliğ etmək üçün 2001-ci ildə Bakıda ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə “Atatürk Mərkəzi” yaradıldı. Həmin mərkəzin açılışında çıxış edən Heydər Əliyev demişdir: “Atatürkün həyatını, fəaliyyətini daim öyrənmək lazımdır. Bizdəki Atatürk Mərkəzi bu işləri görəcəkdir. Atatürkün indiyə qədər Azərbaycanla əlaqədar dediyi sözləri, gördüyü işləri, naməlum qalan cəhətləri aşkara çıxaracaqdır... Atatürkün ideyalarını yaymaq, təbliğ etmək və xalqımıza çatdırmaq, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəm. Bu, bir siyasi xadim, lider və Prezident kimi mənim fəaliyyətimdə çox böyük yer tutur”. [“Xalq” qəzeti, 10 mart, 2001]



Adətən deyirlər ki, tarix şəxsiyyəti yaradır, amma böyük şəxsiyyətlər də öz əməlləri ilə tarix yazır, onu istiqamətləndirirlər. Heydər Əliyev sadəcə, tarix yazan yox, həm də tarix yaradan şəxsiyyət idi. Heydər Əliyev dövrü və zamanı dəyərləndirən bir dövlət başçısı kimi Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən türk dünyasında aparıcı mövqelərə çıxmasında, ümumtürk həmrəyliyinin təmin olunmasında misilsiz xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, bu gün onun adı hörmətlə anılır, türk dövlətlərinin inteqrasiyasında xidmətləri böyük məmnunluqla xatırlanır.

Heydər Əliyevin Azərbaycanın tarixi qayıdışı gəlişi ilə Türkiyə ilə münasibətlər gerçək tərəfdaşlıq, qarşılıqlı fayda üzərində təşəkkül tapdı. Təkcə bir faktı qeyd etmək yetər ki, Heydər Əliyev Azərbaycanda prezidentliyi dövründə xarici ölkələrin rəhbər şəxsləri ilə 500-dən çox görüş keçirmiş, bu görüşlərin təxminən 100-ü Türkiyənin payına düşmüşdü. Bu intensiv təmaslar, daimi məsləhətləşmələr iki ölkənin xarici siyasətini daha sıx koordinasiya etmişdir. Azərbaycan müstəqil dövlət quruculuğunda üzləşdiyi çətinliklərdə hər zaman Türkiyənin dəstəyini gördü, eyni zamanda, həyata keçirdiyi iqtisadi layihələrdə daima Türkiyə ilə təmasda həyata keçirirdi.

Heydər Əliyevin bu tərəfdaşlığa verdiyi ən böyük töhfə Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Türkiyə üzərindən enerji ehtiyatlarının dünyaya açılması oldu. Əsas ixrac neft kəmərinin Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməsi Heydər Əliyevin mürəkkəb geosiyasi şəraitdə, dünya gücləri və neft nəhəngləri ilə gərgin danışıqlarda nümayiş etdirdiyi çevik diplomatiyası hesabına mümkün olmuşdur. Türkdilli dövlət başçılarının V zirvə görüşündə (1998, Astana) çıxış edən ulu öndər Heydər Əliyev dövlət başçılarının diqqətini regional inteqrasiya prosesinə təkan verəcək layihələrin hazırlanmasına yönəltmişdi. Həqiqətən də, sonrakı illərdə dünyanın siyasi mənzərəsini dəyişən “Əsrin müqaviləsi”, “Böyük ipək yolu”, TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Ümummilli Lider türk xalqlarının yaxınlaşması zəruriliyindən bəhs edərək demişdir ki, mən bu gün həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik. Lider Heydər Əliyevin “Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir”.

Bu gün ölkəmizin Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq mənzərəsinə, ortada olan layihələrə nəzər salsaq, onların hamısında Azərbaycanın təşəbbüslərini, Heydər Əliyevin müəllifliyini qeyd edə bilərik. 1998-ci ildə Bakıda, Azərbaycanın ev sahibliyi ilə “Böyük İpək yolu” layihəsinin (Avropa-Asiya nəqliyyat dəhlizi) təməlinin qoyulması, sonrakı illərdə Özbəkistan, Qazaxıstan, Türkmənistan, Azərbaycan və Türkiyənin iştirakı ilə bu yöndə yeni təşəbbüslərin gündəmə gəlməsi və hazırda gerçəkləşən layihələr türk xalqlarının inteqrasiyasına əməli töhfələrdir.

Türk dövlətləri və toplumlarının inteqrasiyasının mühüm bir istiqamətini də mədəni əməkdaşlıq, müştərək mədəni layihələr təşkil edir. Dərin tarixi köklərə malik bağların yeni şəraitdə daha effektiv müstəviyə çıxarılmasında, Beynəlxalq Türk Mədəniyyət Təşkilatının - TÜRKSOY-un formalaşması, bu formatda bir çox layihələrin reallaşması Azərbaycanın aktiv rolu sayəsində mümkün olub. Heydər Əliyev türk xalqlarının mədəni abidələrinin, böyük ədiblərinin, şəxsiyyətlərinin yubiley mərasimlərində yaxından iştirak edir və xalqlarımızın ümumi mədəni sərvətinin bir birləşdirən tarixi dəyər olduğunu diqqətə çatdırırdı.

Azərbaycanın Ümummilli Liderinin türk dünyasının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev türk xalqları arasında əlaqələrin genişlənməsinə, ticarət-iqtisadi, mədəni-humanitar əməkdaşlığın artırılmasına xüsusi əhəmiyyət verir. Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən IX Zirvə görüşündəki (2009, 2-3 oktyabr) çıxışında türkdilli ölkələr arasında iqtisadi, humanitar, mədəni əlaqələrin artırılmasının, müştərək layihələrin yaradılmasının vacibliyini önə çəkərək demişdir: “Əgər gələcəkdə bütün siyasi məsələlərdə, beynəlxalq təşkilatlarda, beynəlxalq müstəvidə biz bir-birimizə öz dəstəyimizi verməyə davam etsək, iqtisadi sahədə əməkdaşlığımızı konkret layihələrlə zənginləşdirsək, humanitar və mədəniyyət sahəsində TÜRKSOY vasitəsilə, konkret layihələr vasitəsilə bu birliyi daha da gücləndirsək, bizim xalqlarımız bundan ancaq fayda götürəcəkdir.

Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir. Eyni zamanda, bu, bügünkü vəziyyətin reallıqlarıdır”. [“Xalq” qəzeti, 4 oktyabr, 2009]

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin tövsiyələrinə uyğun olaraq hər iki ölkə geniş təsir imkanları olan, qarşılıqlı fayda gətirən, regionda sülh və əmin-amanlığa xidmət göstərən bir çox layihələr üzərində işləyir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər güclü olar. Bizim gücümüz birliyimizdədir və bütün beynəlxalq məsələlərdə biz bir yerdəyik” mövqeyi əməkdaşlığımızın əsas prinsiplərindəndir.

Ümummilli lider Heydər Əliyevin daha çox əhəmiyyət verdiyi türkdilli xalqlar və dövlətlərin birliyi və əməkdaşlığı məsələləri bu gün ölkə Prezidenti İlham Əliyev və müstəqil türk dövlətlərinin rəhbərləri tərəfindən uğurla davam etdirilir, Heydər Əliyev türk dünyasının tarixində möcüzə olaraq qalacaqdır.

*Qoşqar Cəlal oğlu Əliyev*
*ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor*

# Vaşinqtondan Brüsselə, Moskvadan Pekinə kimi...

**Müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan Cənubi Qafqaz regionunun iqtisadi, siyasi və humanitar mərkəzi funksiyasını yerinə yetirir. Şübhəsiz ki, bunu təmin edən başlıca strateji faktor həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu, dünyada ildən-ilə artan nüfuz, ölkəmizə dünya dövlətlərinin inamı və etimadıdır. Xüsusilə də, praqmatik xarici siyasət kursu Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirib. Cənubi Qafqazın təhlükəsizlik qarantı olan Azərbaycanın daxili və xarici siyasət kursunu, dünya siyasi arenasında yeri və rolunu xarakterizə edərkən ölkəmizin beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış etməsini xüsusi olaraq vurğulamaq lazımdır. Ümumiyyətlə, ölkəmiz sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli, hətta bir-birinə zidd olan siyasi qütblərin müzakirə meydanına çevrilir, beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir çox nüfuzlu beynəlxalq tədbirlərin respublikamızda keçirilməsi Azərbaycanın beynəlxalq inteqrasiya prosesində uğurla iştirak etməsindən xəbər verir. Beləliklə də, Azərbaycan özünün çoxşaxəli və mütərəqqi xarici siyasət kursu ilə müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır.**

## Bütün dövlətlər Azərbaycanla dost olmaq istəyir

### Sülhpərvər və tərəqqini hədəfləyən mövqe...

Təsadüfi deyil ki, bu amil Azərbaycanın qlobal səviyyədə dəstəklənməsində də mühüm yerə malikdir. Məsələn, son 11 ayda Fransanın ölkəmizə qarşı təşkil etməyə çalışdığı beynəlxalq təzyiq kampaniyası bir neçə fərqli platformada iflasa uğradı - istər Fransanın özünün patronajlığında olan Frankofoniyada yaşanan məğlubiyyət, istərsə də BMT TŞ müstəvisində ölkəmizə qarşı 3 dəfə edilməsinə çalışılan haqsızlıq cəhdinin əməlli-başlı fiasko ilə nəticələnməsi, istərsə də sonuncu dəfə Avropa İttifaqı müstəvisində aparılmasına çalışılan “imzatoplama kampaniyası”nın uğursuzluğu çox şeydən xəbər verir. Bütün hallarda bu kimi anti-Azərbaycan kampaniyalarının qarşısı ölkəmizin dostları tərəfindən alınıb. Azərbaycanın dostlarının yaranan təhlükələrə bağlı tədbirlər isə bir mühüm qənaətə gətirib çıxarır - yaxın və etibarlı tərəfdaş, dost olan Azərbaycan hər zaman hər bir ölkəyə yalnız və yalnız bacardığı köməyi, yardımı edib. Azərbaycan istər yaxın qonşuları arasında, istərsə də geniş geosiyasi məkanda dostluq, əməkdaşlıq və etibarlı tərəfdaşlıq məkanı kimi şöhrət tapıb. Bu kimi mühüm fəaliyyəti ilə Azərbaycan həm də beynəlxalq münasibətlər sistemində yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir şəraitdə Azərbaycan sabitliyi, sülhpərvər və tərəqqini hədəfləyən mövqeyi ilə dünyada nümunəyə çevrilir.




### Azərbaycan “master klas” keçdi...

Bu fakt hər zaman beynəlxalq mühitdə də yüksək qiymətləndirilir. Azərbaycanın yürütdüyü siyasətin, yaratdığı işgüzar və iqtisadi cəlbedicilik mənzərəsinin qlobal Şərq-Qərb əməkdaşlığında tutduğu yer hər zaman təqdir edilir. Təsadüfi deyil ki, “Politico” nəşri Cənubi Qafqazda baş verənlərlə bağlı yazısında bildirib ki, təxminən 10 milyon əhalisi olan Azərbaycan coğrafiyadan və geologiyadan yaxşı nəticə əldə etmək üçün “master klas” keçdi. Nəşr bildirir ki, Vaşinqtondan Brüsselə, Moskvadan Pekinə kimi heç kim Azərbaycanla mübahisə etmək istəmir - hər kəs dost olmaq istəyir.

Bu amil XXI əsrin siyasi-iqtisadi düzənində ən mühüm amildir - qütbləşmənin aktiv fon aldığı indiki zamanda milli maraqlara əsaslanan müstəqil siyasi davranış sərgiləmək Azərbaycan kimi az-az dövlətlər üçün spesifikləşib. Azərbaycan Prezidentinin apardığı uğurlu və çoxvektorlu xarici siyasət kursu bu amilin reallaşmasında ən mühüm şərt kimi çıxış etməkdədir. Məhz Prezident İlham Əliyevin yürütdüyü siyasət əməkdaşlığa, qarşılıqlı milli maraqların qorunmasına, yüksək səviyyəli tərəfdaşlığa əsaslandığı üçün dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycana etimad göstərir. Azərbaycan özünün çoxşaxəli və mütərəqqi siyasi kursu ilə müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır. Bütün sahələr üzrə Şərq ilə Qərb arasında körpü rolunu oynayan ölkəmiz sabitləşdirici faktora çevrilib.



### Dünya güclərinin siyasi dialoq məkanı...

Bu ilin iyulunda “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxış edən Prezident İlham Əliyev bildirmişdi ki, bizim ölkəmiz rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır. Qeyd edilməlidir ki, Azərbaycanın qlobal səviyyədə siyasi dialoq məkanı kimi tanınıb şöhrət tapması bir gerçəklikdir. Ölkəmiz bu gün də qlobal siyasi-iqtisadi danışıqlar platforması funksiyasını həyata keçirir. Məsələn, son bir neçə ildə dəfələrlə bunun əyani şahidi olmuşuq ki, fərqli siyasi - hərbi qütblərin təmsilçilərinin görüşü üçün məhz Bakının seçilməsi ənənəyə çevrilib. Dünyanın güc qütblərinin siyasi dialoq üçün Bakını seçməsi isə qeyri-adi hal deyil - Bakı iqtisadi-siyasi, hərbi platformalarda bütün tərəflər üçün eyni məsafədə dayanan tək - tək dövlətlərdəndir. Ən əsası isə Azərbaycan etibarlı tərəfdaşdır. Terrorizmə qarşı mübarizə, dünyada sülhün və təhlükəsizliyin təmini kimi mühüm faktorlar üzrə uğurlu işbirliyi Azərbaycanın bütün tərəflər üçün aktuallığını artırır. Eyni zamanda, ölkəmiz dünyanın enerji təminatında fəal rol alır ki, bu ad milli maraqlar çərçivəsində müəyyənləşdirilir. Bir sözlə, Azərbaycan hər zaman özünün siyasi xəttinə sadiqlik nümayiş etdirməklə qlobal məkanın ən fəal və etibarlı tərəfdaşına çevrilib.




*P. SADAYOĞLU*



# Sülhə doğru...

## Ermənistan yaranmış tarixi şansdan istifadə etmək istəyir

Vətən müharibəsindən sonra Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi ən əsas prioritetlərdən sayılır. Bunun üçün isə Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkməli, Azərbaycanın sülhə və əmin-amanlığa hədəflənən şərtlərinə razı olmalıdır. Artıq iki ilə yaxındır ki, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində davam edən danışıqlar prosesi məhz Ermənistanın qeyri-adekvat mövqeyi səbəbindən nəticə tapmayıb.

Bununla belə sentyabrın 20-də Xocavənd rayonu ərazisində törədilən məlum mina təxribatının ardından başlanan və 24 saat davam edən antiterror tədbirləri sülhlə bağlı məsələyə də yeni dinamizm qazandıra bilər. Ermənistan parlamentinin sədri Alen Simonyan yerli İctimai Televiziyaya müsahibəsində deyib ki, İrəvan Bakı ilə sülh müqaviləsi imzalamağa hazırdır. O, Prezident Əliyev ilə Nikol Paşinyan arasında keçiriləcək görüşdə sülh sazişinin imzalanmasının mümkünlüyü ilə bağlı sualı cavablandırarkən bildirib ki, İrəvan “bu məsələdə irəliyə doğru addım atılmasını” çox istərdi. “Biz bu tarixi şansdan istifadə etmək istəyirik. Əbədi müharibə heç kimə lazım deyil. Biz buna hazırıq”, - Alen Simonyan bildirib.



### Müsbət impulsun davam etdirilməsi üçün...

Vurğulanmalıdır ki, sülh prosesi ilə bağlı Azərbaycanın mövqeyi bəlli və şəffafdır. Ermənistan ilə Azərbaycan arasında baş tutan son görüşlərdə əldə edilmiş müsbət impulsun davam etdirilməsi üçün hər bir şərait və zəmin mövcuddur. Ən əsası isə bütün addımlarında və təkliflərində beynəlxalq hüquqa səaslanan Azərbaycanın yaratdığı ədalət mənzərəsi ortadadır. Sülh danışıqları üçün baza prinsipi kimi irəli sürülən məsələlər iki dövlətin münasibətlərinin yaxınlaşmasında əsaslı rol oynamaq imkanındadır. Bu, həm qarşılıqlı etimadın yüksəlməsinə, həm də yeni reallıqlarda aradan qaldırılacaq problemlərin həllinə yaxından kömək olar. Azərbaycan hər zaman bəyan edib ki, sülhün və təhlükəsizliyin davamlı olması üçün səy göstərir. İndiki halda - Azərbaycanın Qarabağdakı terroçuları zərərsizləşdirməsinin ardından isə bu, daha real görünür. Qeyd edək ki, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağı da Azərbaycan torpaqları kimi tanıdığını bəyan etməsi siyasi razılaşmalar üçün mühüm baza sayıla bilər. Azərbaycan isə hər zaman sülhün tərəfdarı qismində çıxış edir - qalib tərəf olsaq da, humanizm prinsiplərinə əsaslanaraq müharibə istmədiyimizi önə çəkirik.

### Əsassız iddialardan birdəfəlik əl çəkilməlidir...

Sadəcə olaraq, İrəvanın məsələdəki səmimiyyəti vacib faktorlardandır. Çünki sülhyaratma prosesində vasitəçilik edən tərəflərin moderatorluğu ilə baş tutan danışıqların nəticə verməməsinin əsas səbəbi Ermənistanın mövqesizliyidir. Bu ölkənin yürütdüyü siyasət, məsələlərə münasibəti regionda təhlükəsizlik arxitekturasının qurulmasına mane olur. Bir yandan sülh prosesinə sadiq olduğunu bildirən, hətta görüşlərdə proqressiv irəliləyişlərə belə “hə” deyən rəsmi İrəvan sonradan tamam fərqli mövqe nümayiş etdirir, sülh prosesini manipulyasiya etməyə çalışır. Bu kimi qeyri-müəyyənlik isə bütövlükdə, prosesin sürətlənməsini, sülhün və təhlükəsizliyin təmin olunmasını ləngidir. Halbuki

Beləliklə, Ermənistan özünün əsassız iddialarından əl çəkməli və ölkəmizin önə sürdüyü şərtlər əsasında sülhə razılaşmalıdır. Bir sözlə, Ermənistan sülh prosesinin hazırki mərhələsinin səmərəli şəkildə yekunlaşması üçün səy göstərməlidir. Əks halda Ermənistan həm də yeni regional, hətta qlobal səviyyəli iqtisadi layihələrdən yenə də kənarda qalma təhlükəsi yaşayacaq - Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələr isə ümumən regiona yeni inkişaf tempi qazandırmaqdadır. Ermənistan yenə də təhlükəsizlik arxitekturasına təhdid yaradan amil rolunda çıxış etməkdə “israrlı olarsa”, bu, rəsmi İrəvan üçün xoşagəlməz nəticələrə yol aça bilər.

Bununla yanaşı, yeni siyasi reallıqlar da sülh prosesinin inkişafına mühüm müsbət təsirlər göstərmək imkanındadır. Ermənistan dərk edir ki, sülh müqaviləsinin imzalanması bu gün daha çox onların marağında olan məsələdir - sosial problemlərin girdabında əzilən, maddi imkanları olmayan Ermənistan konstruktiv mövqeyinin qarşılığında regionun ümumi mənzərəsinə, ruhuna uyğun inkişaf yoluna qədəm qoyacaq. Rəsmi İrəvan başa düşür ki, Azərbaycan bu gün regionun aparıcı siyasi-iqtisadi aktoru kimi qəbul olunur və sülhün imzalanması Ermənistanın da regional və qlobal əməkdaşlıq platformalarına yolunu açacaq. Eyni zamanda, İrəvanın antiterror tədbirləri dövründə davranışları da bu ölkənin sülhə doğru addım atmaq istədiyini məyyən mənada dəstəkləyir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev xalqa müraciətində bildirmişdi ki, Ermənistan bu dövr ərzində gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk: “Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək. Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq”.

### Ermənistanın son davranışları...

**P.İSMAYILOV**



# Qərbi Azərbaycana Qayıdış

## Milli Məclisdə dinləmə keçirilib

*Günel ABBAS*

Sentyabrın 25-də Milli Məclisdə “Qərbi Azərbaycana qayıdış: Hüquqi aspektlər” mövzusunda ictimai dinləmə keçirilib. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkilatçılığı ilə keçirilən dinləmədə deputatlar, Qərbi Azərbaycan İcmasının üzvləri, hüquq-mühafizə orqanlarının təmsilçiləri, hüquqşünas alim və tədqiqatçılar, vətəndaş cəmiyyətinin nümayəndələri və ekspertlər iştirak ediblər.

Tədbirdə çıxış edən Baş prokurorun müavini Elmar Camalov bildirib ki, 1987-1991-ci il tarixlərində baş vermiş kütləvi deportasiya və soyqırımı zamanı ermənilər tərəfindən Qərbi Azərbaycan ərazisində qətlə yetirilən 216 şəxsdən 30 nəfər şəxsin yaxın qohumları, habelə hadisənin şahidləri müəyyən edilərək dindirilib: “Zərərçəkmiş şəxslərin hüquqi varisi qismində tanınmışdır. Eyni zamanda, 15 nəfər şəxsin isə Qərbi Azərbaycan ərazisində ermənilər tərəfindən deportasiyaya məruz qalarkən erməniəsilli şəxslər tərəfindən müxtəlif predmetlərlə döyülərək xəsarət almaları müəyyən edilmiş həmin şəxslər və onların qohumları müəyyən edilərək zərərçəkmiş şəxs və ya zərərçəkmiş şəxsin hüquqi varisi qismində dindirilib”.

Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli vurğulayıb ki, 1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiya isə öz amansızlığı və qəddarlığı ilə əvvəlkilərdən bir o qədər də fərqlənmədi: “Ermənilərə xas eyni vəhşi üsul və metodlarla soydaşlarımız sonuncu nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovuldular. Bu prosesdə 200 nəfərdən çox soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi, 400-dən artıq insanımız bədən xəsarəti aldı, 300-ə yaxın yaşayış məntəqəsindən azərbaycanlılar qovuldular və bu zaman onlara fərdi təsərrüfatlar üzrə 2,5 milyard, ictimai təsərrüfatlar üzrə 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vuruldu. Yeraltı və yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, bu ziyan bir neçə dəfə artar. Mənəvi zərəri isə heç bir məbləğlə əvəz etmək olmaz”.

İcma rəhbəri xatırlatma edərək Prezidentin Qərbi azərbaycanlılarla görüşdə bir sıra mühüm məsələlər, o cümlədən Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması ilə bağlı qarşıya vəzifələr qoyduğunu söyləyib. O, sözügedən konsepsiyanın bir ay müddətində hazırlanaraq, təsdiq edildiyini deyib. Bildirib ki, sənəddə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapıb. O, soydaşlarımızın həmin ərazilərə qayıtdıqdan sonra təhlükəsiz yaşaması məsələsinin həll olunmasının vacibliyindən də danışıb. Qeyd edib ki, Qərbi azərbaycanlıların qayıdışı tələbi beynəlxalq hüquqa tam uyğundur. Bu istiqamətdə beynəlxalq müstəvidə də ardıcıl iş aparılmalıdır. Bu mənada, Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətinin Birləşmiş Millətlər Təşkilatının rəsmi sənədi kimi yayılması mühüm əhəmiyyət kəsb edir. İcma sədri bu istiqamətdə Qərbi Azərbaycan İcmasının səmərəli fəaliyyət göstərdiyini söyləyib.

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

İdarə heyətinin sədri müzakirəyə çıxarılan mövzunun mühüm siyasi-hüquqi xarakter daşıdığını deyib. O, məsələnin Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən sonra yaranmış yeni reallıqlar kontekstində vacibliyindən bəhs edib.

Ə.Ələkbərli soydaşlarımızın öz əzəli torpaqlarına qayıdışının bütün Azərbaycan xalqının hədəfi olduğunu, bu mənada aparılan müzakirələrin milli həmrəyliyin daha da möhkəmlənməsinə xidmət etdiyini söyləyib. O, xalqımızın yaşadığı humanitar faciənin fəsadlarının aradan qaldırılmasının, insanlarımızın pozulmuş hüquqlarının bərpasının, bu istiqamətdə beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra Milli Məclisin deputatları, hüquqşünaslar, Qərbi Azərbaycan İcmasının üzvləri, tarixçilər azərbaycanlıların indiki Ermənistandan - öz dədə-baba yurdlarından kütləvi şəkildə didərgin salınması, Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri, ermənilər tərəfindən törədilmiş cinayətlərin hüquqi baxımdan qiymətləndirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

# 2030-cu ilədək 9 əsas layihə...

## 69 fəaliyyət istiqaməti dövlət və özəl sektoru, vətəndaş cəmiyyətini əhatə edəcək

*Mübariz FEYİZLİ*

Dünyanın arxada qoyduğu üç sənaye inqilabı tarixə çevrilib. Artıq rəqəmsal texnologiyaların hakim olduğu bir dövrə gəlib çatmışıq. Qlobal məkanı kiçik kənd halına salaraq bir ovuc içində birləşdirən İKT həyatımızın ayrılmaz, çox vacib hissəsinə çevrilib. Eyni zamanda, bu gün iqtisadi və institusional inkişafı, xidmət sektorunu, təhsili, ölkələrin müdafiə sistemlərini, ümumiyyətlə, bütün sahələri rəqəmsal texnologiyalarsız təsəvvür etmək belə mümkün deyil. Proses getdikcə daha dönməz xarakter alır və süni intellekt bazarı sürətlə böyüyür. Bəşəriyyətin qarşısında intensiv inkişaf mərhələsi açan Dördüncü Sənaye İnqilabını şərtləndirən yeniliklərin miqyası kifayət qədər genişdir. Bu sənaye inqilabı bulud texnologiyası əsasında kiberfiziki sistemlərin istehsala tətbiqinə geniş imkanlar açıb. Ağıllı istehsalatlar, ağıllı yaşayış məntəqələri, süni intellekt, 3D printerlər, pilotsuz uçuş aparatları, sürücüsüz nəqliyyat vasitələri, implantasiya oluna bilən texnologiyalar və s. Dördüncü Sənaye İnqilabı sayəsində günümüzün reallıqlarına çevrilib.

Hazırda dünya üzrə bulud texnologiyalarının tətbiqində Çin rəqib tanımır. Sonrakı yerləri isə Asiya-Sakit Okean, eləcə də Avropa, Yaxın Şərq və Afrika regionları ölkələri bölüşürlər

### Yeni Nəsil İqtisadiyyatı Strategiyası hazırlanır

### Cənubi Qafqazda lider ölkə

Yeni sənaye inqilabına transformasiya bütün ölkələr kimi Azərbaycanın da qarşısına yeni çağırışlar qoyub. Burada dövlətin siyasi iradəsi, insan kapitalı, zəruri fiziki və institusional infrastrukturun qurulması mühüm şərtlərdir. Deyə bilərik ki, respublikamızda Dördüncü Sənaye İnqilabına transformasiyanı şərtləndirən bütün amillər yüksək səviyyədə təmin olunur. Azərbaycan müasir dövlət kimi inkişaf edir. Bu strateji kursa uyğun olaraq respublikamızda yeniliklərə daim “yaşıl işıq” yandırılır. 2021-ci ildə Prezident İlham Əliyev respublikamızda Dördüncü Sənaye İnqilabına keçidin hüquqi əsaslarının möhkəmləndirilməsini və institusional infrastrukturun yeni çağırışlara uyğunlaşdırılmasını hədəfləyən iki mühüm sənəd imzaladı. Bunlardan biri 2021-ci il 6 yanvar tarixində imzalanmış “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Fərmandır. Prezident İlham Əliyevin 11 oktyabr 2021-ci il tarixində imzaladığı “Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərmanla isə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb. Bütün bunlar Azərbaycan dövlətinin rəqəmsal transformasiyaya böyük önəm verdiyini əyani şəkildə təsdiqləyir.

Ölkəmizdə paralel şəkildə dayanıqlı rəqəmsal infrastrukturun qurulması istiqamətində işlər uğurla davam etdirilir. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri “AzerTelecom” şirkəti tərəfindən reallaşdırılan “Azerbaijan Digital Hub” proqramıdır.

Rəqəmsal transformasiyanın mühüm şərtlərindən biri insan resursları ilə bağlıdır. Respublikamızda “qara qızıl”ın insan kapitalına çevrilməsi məqsədini hədəfləyən siyasətin aparılması rəqəmsal transformasiyaya keçidin yükünü, necə deyərlər, öz çiyinlərində daşıyacaq mütəxəssislərin, gənc kadrların formalaşmasını təmin edib.

Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000 və ISO 27001 standartlarına uyğun Data Mərkəzi yaradılıb və fəaliyyəti təmin edilib. Eyni zamanda, Prezident İlham Əliyev 3 iyun 2019-cu il tarixində “Hökumət buludu”nun (G-cloud) yaradılması və “bulud” xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında” Fərman imzalayıb.

Respublikamızın rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı hədəfləri də kifayət qədər böyükdür. O cümlədən 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş 11 min kvadrat kilometrədək ərazinin bərpasında rəqəmsal texnologiyaların tətbiqinə geniş meydan verilir. Həmin ərazilərdə ilk “Ağıllı kənd” layihəsinin icrası artıq tamamlanıb və yenilərinin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycanın rəqəmsal texnologiyalara keçid sahəsində qazandığı uğurlar beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Bunu Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Azərbaycan Mərkəzinin (4SİM Afiləedilmiş Azərbaycan Mərkəzi) təsis edilməsi bir daha təsdiqləyir. Mərkəzin yaradılmasının əsası 2020-ci ilin 21 yanvar tarixində İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında niyyət protokolunun imzalanması ilə qoyulub. Ötən ilin fevralında isə Bakıda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışı baş tutub. Bu, MDB məkanında açılan ilk belə mərkəzdir.

### 69 fəaliyyət istiqaməti üzrə iqtisadi artımın dəstəklənməsi

Aparılan məqsədyönlü siyasət və davamlı şəkildə reallaşdırılan islahatlar sayəsində Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub. Bu strateji mərhələ, qarşıya çıxan çağırışlar iqtisadi çərçivələrin də yenilənməsini tələb edir. Bu baxımdan respublikamızda Yeni Nəsil İqtisadiyyatı Strategiyasının hazırlanmasına başlanılması xüsusi aktuallıq daşıyır. Yeni Strategiyanın hazırlanmasının anonsunu iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov “Yeni nəsil iqtisadiyyatda Süni intellekt: çağırışlar və imkanlar” tədbirində çıxışı zamanı edib. Nazirlik rəsmisinin bildirdiyi kimi, Azərbaycanın beynəlxalq əhəmiyyətli enerji, nəqliyyat-logistika və kommunikasiya qovşağına, regionun ən böyük və dinamik iqtisadi məkanına, 4-cü sənaye inqilabı və strateji investorların maraq mərkəzinə çevrilməsi, onun qlobal dəyər zəncirinə inteqrasiyası və innovasiya əsaslı inkişaf mərhələsinə keçidi üçün möhkəm təməllər yaranıb. “2030-cu ilədək dövlət, özəl və vətəndaş cəmiyyətini əhatə etməklə iqtisadiyyata töhfə verəcək 9 əsas layihə və bu layihələr çərçivəsində 69 fəaliyyət istiqaməti üzrə Azərbaycanda iqtisadi artımı dəstəkləmək, sektorların rəqabət qabiliyyətini artırmaq, vətəndaşların xidmətlərə çıxışını asanlaşdırmaq və dövlət xidmətlərinin fəaliyyətinin təkmilləşdirilməsini təşviq etmək üçün rəqəmsal texnologiyadan geniş istifadə olunmasını təmin etmək nazirliyimiz qarşısında duran ən mühüm vəzifələrdən biridir. İqtisadiyyat Nazirliyi innovasiyaları, inklüzivliyi əhatə edən, onları Azərbaycan iqtisadiyyatının və cəmiyyətinin bütün aspektlərinə səmərəli şəkildə inteqrasiya edən iqtisadi artım üçün istiqamətləndirici baxışın həyata keçirilməsinə çalışır”, - deyə nazir müavini qeyd edib.

Strategiyanın reallaşdırılması yeni dövrdə Azərbaycanda biznes transformasiyasının gücləndirilməsindən tutmuş potensialın artırılmasına, 4Sİ texnologiyalarının geniş tətbiqini nəzərdə tutan model tipli müəssisənin və yeni nəsil texnoloji mərkəzin qurulmasına, Rəqəmsal əkizlərin yaradılmasına və “Lokal Generative Süni İntellekt” təşəbbüsünün həyata keçirilməsinə, sahibkarlığın təşviq edilməsinə və əlverişli infrastrukturun dəstəklənməsinə qədər bütün sahələrdə inkişafa zəmin yaradacaq. “Lokal generativ süni intellekt” təşəbbüsü Azərbaycan dilini mükəmməl bilən və Azərbaycana məxsus məzmun yerləşdirilən generativ Sİ platformalarının hazırlanmasını stimullaşdırmaq məqsədi daşıyır. Təşəbbüsün məqsədi Azərbaycanın mədəni zənginliyini qorumaqla ölkədə süni intellektin tətbiqi imkanlarını artırmaq, iqtisadi artımı təşviq etmək, yeni texnologiyaya əsaslanan iş yerlərinin və sənayelərin yaradılmasını stimullaşdırmaqdır.



### 136 milyard dollar dəyərində süni intellekt bazarı

Statistika göstərir ki, süni intellekt bazarı 2022-ci ildə 136 milyard dollar dəyərində qiymətləndirilib və 2023-cü ildən 2030-cu ilə qədər bu bazarın illik 37,3 faiz nisbətində böyüyəcəyi gözlənilir.

Sahib Ələkbərobun sözlərinə görə, gələcəkdə süni intellekt texnologiyalarının geniş tətbiqi bu sahəyə diqqətin artırılmasını tələb edir, yeni təfəkkürə malik mütəxəssislərin yetişdirilməsi və etik standartların müəyyənləşdirilməsini zəruri edir. Texnologiyanın sürətli inkişafı və qabaqcıl GPT modellərinin yaranması satınalmalar üçün standartların yaradılmasına böyük ehtiyac doğurur. Bu sahədə yeni qaydaların və prosedurların hazırlanması da çox vacibdir. Müəssisələr daxilində satınalma prosesini daha səmərəli təşkil etmək üçün rəhbər heyət təşkilatın süni intellekt strategiyasının vahid planını müəyyənləşdirməlidir.

“Dünya İqtisadi Forumu tərəfindən süni intellekt əsaslı həllərin satınalmaları zamanı istifadəsi tövsiyə olunan təlimatlar ekosistemin formalaşdırılması istiqamətində önəmli addımlardan biri kimi qiymətləndirilə bilər və onlar süni intellekt həllərini satın almaq istəyən qurumlara faydalı çərçivə təmin edə, əlavə olaraq növbəti mərhələlərdə sözügedən proseslərdə standartların formalaşdırılmasına və bu sahədə tənzimləyici nəzarəti həyata keçirən dövlət qurumlarının fəaliyyətinə də önəmli töhfə verə bilər. İstər dövlət qurumlarının, istərsə də özəl müəssisə və təşkilatların fəaliyyətlərində səmərəliliyin təmin edilməsi və ya artırılması üçün süni intellekt, əşyaların interneti, blokçeyn, avtonom robotlar və s. kimi 4Sİ texnologiyaları əsaslı həllər tələb olunur. Bu kimi həllərin təchizatı, satınalınması, istifadəsi və yayılması isə müvafiq ekosistemin formalaşdırılmasını tələb edir ki, fiziki və virtual infrastruktur, o cümlədən qanunvericilik, standartlar və etik çərçivələr bu ekosistemin komponentləridir” , - deyə nazir müavini vurğulayıb.

# Dövlətin maraqlarının müdafiəsi...

## Azərbaycanda prioritet istiqamət olaraq müəyyənləşib

*Günel ABBAS*

Demokratik inkişaf yolunda inamla addımlayan, insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunduğu Azərbaycanda davamlı olaraq siyasi sistemin inkişafına xidmət edən çox mühüm addımlar atılır, ardıcıl islahatlar reallaşdırılır. Bu isə siyasi subyektlərin, ictimai institutların səmərəli fəaliyyətinə, beləliklə, dövlət maraqlarının qorunmasına mühüm töhfələr verir. Ümumiyyətlə, Azərbaycanda ictimai və dövlət maraqlarının qorunması prinsipi hər zaman prioritet istiqamət kimi müəyyənləşib. Cəmiyyət və dövlət maraqları qarşılıqlı olaraq inkişaf etdirilib. Təbii ki, yeni dövr yeni çağırışlar meydana çıxarır və bu mənada, ictimai və dövlət maraqlarının qorunmasını təmin edən başlıca institusional vasitə kimi dövlətin yürütdüyü siyasət də çevik, davamlı olmalıdır. Bu gün qlobal müstəvidə yeni nizam qaydalarınının müəyyənləşdirilməsi prosesi gedir - belə bir məqamda, hər zaman bəşəri dəyərləri yüksək qiymətləndirən, böyük məsuliyyət və ciddi yanaşma sərgiləyən Azərbaycanda da dövlət maraqları, ictimai və milli maraqların təmin olunması mühüm şərt kimi öz aktuallığını möhkəmləndirir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**

Təbii ki, burada cəmiyyətin, ayrı-ayrı fərdlər olaraq vətəndaşların üzərinə düşən vəzifə və öhdəliklər də mövcuddur - yəni vətəndaşlıq öhdəliyi, vətəndaşlıq məsuliyyəti dövlət maraqlarının qorunmasının ən mühüm komponentlərindən sayılır. Müasir Azərbaycan cəmiyyətinin intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət olduğunu nəzərə alsaq, ictimai və dövlət maraqlarının qorunması məsələsində diqqətli yanaşmaların sərgilənməsini də təbii saymalıyıq. Bu mövqe isə xalq olaraq bizim sərhədlərimizdən kənarda daha böyük uğurlara imza atmamızı şərtləndirir. İctimai və dövlət maraqlarını qoruyaraq biz antimilli xarici təsirləri də minimuma salmağı bacarırıq.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin üzvü Anar İsgəndərov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, dövlət qarşılıqlı ictimai münasibətlərin tənzimlənməsində mühüm rol oynayır. Təbii ki, dövlət və ictimai maraqların qorunması kontekstində fərqli siyasi baxışlar və ya fərqli siyasi mövqelər təsiredici amil kimi çıxış edə bilməz: “Siyasi fərqli baxışlar bu məsələdə öz əhəmiyyətini itirməlidir - müxalif düşərgədə olanlar, qeyri-hökumət təşkilatı institutları, eyni zamanda, cəmiyyətin bitərəf, amma nüfuzlu nümayəndələri davranışlarında bu tezisi əsas götürməlidirlər. Bir sözlə, dövlətin, xalqın maraqlarının müdafiə edildiyi müstəvidə fərqli mövqe anlayışı aradan qalxır - burada söhbət dövlətin qorunması, suverenliyin qorunması kimi mühüm məsələlərdən gedir”.



Millət vəkili vurğulayıb ki, ictimai nəzarət də vacib elementlərdən sayılır. Bu iki amil olmasa, dövlətlə insan arasında qarşılıqlı himayə mexanizmi səngiyər - bu isə ümumi işin ziyanınadır. “Hər bir vətəndaşın və ya siyasi təşkilatın ən ümdə vəzifəsi Azərbaycan dövlətinin inkişafı, güclənməsi və təhlükəsizliyi ilə bağlı konsepsiyalar hazırlamaq və bunu cəmiyyətlə bölüşməkdən ibarətdir. Nəticə etibarı ilə dövlətin apardığı milli maraqlara əsaslanan siyasət kursu da mütləq şəkildə müdafiə olunmaldır. Bu isə öz növbəsində Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün ən mühüm şərtlərdəndir”, - deyən A.İsgəndərov qeyd edib ki, bütün sahələrdə, istər sosial, iqtisadi, istərsə də siyasi sahədə aparılan islahatlar dövlət və ictimai maraqların qorunmasına xidmət edir: “Hesab edirəm ki, dövlət maraqlarının qorunması fonunda cəmiyyətin siyasi palitrada anlaşması, barış mühitində olması vacibdir. Bu, yeni siyasi konfiqurasiyanın konturlarıdır. Azərbaycanda yeni siyasi konfiqurasiya, yeni siyasi münasibətlər sistemi formalaşdırılıb. Bu istiqamətdə ardıcıl islahatlar davamlı hal alıb”.

Onun sözlərinə görə, ictimai və dövlət maraqları bir-birini tamamlayır: “Dövlət maraqları nəzəri cəhətdən, həm də ictimai maraqları özündə birləşdirir. Dövlət cəmiyyətin qurduğu idarəetmə sistemidir. İctimaiyyətin məmnunluğu o halda təmin olunur ki, dövlət tərəfindən görülən tədbirlər insanları məmnun edir. Bu gün hər bir azərbaycanlı öz dövlətinin inkişafı, təhlükəsizliyi üçün bütün gücünü ortaya qoymalıdır və qoyur. Əlində, Vətənin sərhədlərinin təhlükəsizliyini qoruyan əsgərlərimizin əldə etdiyi qələbələrin daha da möhkəmlənməsi üçün hər kəs ictimai və dövlət maraqlarını qəti şəkildə qorumağı özünün şərəf borcu bilməlidir”.

# Fransanın neo-müstəmləkəçi siması BMT-də ifşa olunub

**Xəbər verildiyi kimi, sentyabrın 22-də ABŞ-ın Nyu-York şəhərində BMT-nin qərargahında Baş Assambleyasının davam edən ümumi müzakirələri çərçivəsində “Müstəmləkəçiliyə son qoyulması: Sakit inqilab” adlı konfrans keçirilib. Konfrans Qoşulmama Hərəkatının (QH) bu il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılmış Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilib. Tədbirdə neo-müstəmləkəçilik problemi BMT müstəvisinə qaldırılıb və aparılan müzakirələrin sonunda Bəyanat qəbul edilib.**

## Bakı Təşəbbüs Qrupunun səyi ilə Bəyanat qəbul edilib

### Azərbaycanın qlobal səviyyədə dəstəklənən təklif

Qeyd edilməlidir ki, beynəlxalq platformalarda fəal iştirakı ilə seçilən Azərbaycanın Qoşulmama Hərəkatı müstəvisindəki fəaliyyəti olduqca uğurludur. Ölkəmizin qurumun prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də Azərbaycana böyük etimad və nüfuz qazandırıb. Bunun nəticəsidir ki, hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Ölkəmizin QH-yə sədrliyi nümunəvi olub. Buna görə də QH-yə üzv olan dövətlər 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanlayıblar və bu müraciət respublikamız tərəfindən qəbul olunub. Bu, dünyada ölkəmizə, onun liderinə olan böyük inamın və etimadın ifadəsidir.

Azərbaycan QH çərçivəsində daim qlobal əhəmiyyət daşıyan təşəbbüslərlə çıxış edir. Qurumun Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 6 iyul 2023-cü ildə Bakıda “Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru” adlı tədbir keçirilib. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib. Tədbirdə XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrinin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq məqsədilə Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəliblər.



### Fransa müstəmləkəçiliyinin kədərli izləri

Fransanın müstəmləkəçilik tarixinin 1524-cü ildən başladığı bildirilir. Fransa Afrikanın qərbində və şimalında 20-dən çox ölkədə hökmranlıq qurmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində Fransanın nəzarətində qalıb.

Lakin demokratik dəyərləri ilə öyünən Fransa özünün ağır şərtləri ilə fərqlənən müstəmləkə şəbəkəsinə daxil etdiyi Afrika ölkələrinə yaxşı heç nə gətirməyib. Əksinə, ən qəddar vasitələrlə ram edilən ölkələr sivilizasiya ilə bir araya sığmayan mühafizəkar qanunlarla idarə olunub, təbii sərvətlər talanıb, baş qaldıran etirazlar ən sərt və qəddar müdaxilələrlə yatırılıb. Fransa, Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırım üçün məsuliyyət daşıyır. Tarixi sənədlərdə də öz əksini tapdığı kimi, 1945-ci il mayın 8-i Fransanın Əlcəzairdə soyqırımının başladığı tarixdir. Bu soyqırımda 5 milyondan çox müsəlman əlcəzairli həyatını itirib. 1994-cü ildə fransızlar Ruandada “təhlükəsiz zona yaratmaq” adı altında hərbi əməliyyat həyata keçiriblər. Həmin əməliyyat zamanı yerli tutsi qəbiləsinin 800 mindən çox üzvü qətlə yetirilib. 2014-cü ildə Ruanda Prezidenti Pol Kaqamenin soyqırımı aktında Fransanın rolunu dəqiq müəyyən etdiyi barədə bəyanatı isə rəsmi Parisdə siyasi böhrana səbəb oldu. Fransa qoşunlarının Çadda keçirdikləri “Epervier”, Fildişi Sahilində “Licorne” hərbi əməliyyatları da çox sayda insan tələfatı ilə nəticələnib. 2011-ci ildə isə mülki insanları qorumaq bəhanəsi ilə Liviyada keçirilən “Harmattan” və iki il sonra Malidəki “Serval” hərbi əməliyyatları da böyük dağıntılar və qətllərlə sonuclanıb. Bütövlükdə, Afrikada yerləşən Benin, Çad, Cibuti, Qabon, Qana, Kamerun, Komor adaları, Mavritaniya, Seneqal, Tunis, daha sonra Suriya, Livan zaman-zaman Fransa tərəfindən törədilən dəhşətli qırğınlara şahidlik edib. Fransanın ilk nüvə silahı da məhz Əlcəzairdə sınaqdan keçirilib. Fransa hələ 1945-ci ildən etibarən Afrikada Fransız Müstəmləkələri frankı (CFA) adlı pul vahidini dövriyyəyə buraxıb. Məhz bu pul vahidinin sayəsində Fransa Afrika ölkələrini istismar edir, onların sərvətlərini mənimsəyir. Məlum olduğu kimi, Afrikanın Sahil regionu ölkələri, habelə Fildişi Sahili və Malidə baş verən münaqişələrin əsas səbəbi CFA-ya alternativ valyuta seçmək cəhdləri olub.




### Bakıdan Nyu-Yorkadək

Müstəmləkəçilik siyasəti müasir dövrün tələbləri və çağırışları ilə bir araya sığmır. O cümlədən də Fransanın müstəmləkəçilik siyasətini indiki dövrdə neo-kolonializm formasında davam etdirməsi bu ölkə üçün son dərəcə utanvericidir. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Fransanın neo-müstəmləkəçilik siyasətinə qarşı etirazları Bakıdan Nyu-Yorka - BMT müstəvisinə daşımağa nail olub. Cari ilin iyulunda Bakıda keçirilən tədbirin davamı olaraq BMT ofisində bəhs olunan konfransın keçirilməsi Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri ilə əməkdaşlığın dərinləşdirilməsi, eləcə də BMT Baş Assambleyası tərəfindən 75/123 nömrəli “Müstəmləkəçiliyin ləğvi üzrə beynəlxalq dördüncü onillik” adlı qətnamənin qəbulunun yaratdığı imkanlardan yararlanmaq üçün müzakirələrin aparılması olub. Tədbirdə Fransanın dənizaşırı bölgələri - Yeni Kaledoniya, Fransız Polineziyası, Fransız Qvianası, Martinika və Qvadelupanın müstəqillik və millətçi hərəkatlarının nümayəndələri, Melaneziya Təşəbbüs Qrupunun təmsilçisi iştirak ediblər. Müstəqillik və millətçi hərəkatlarının nümayəndələri Fransa müstəmləkəçiliyindən tam azad olunanadək və müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirəcəklərini bəyan ediblər.

Daha sonra, konfrans iştirakçılarına yeni yaradılmış “Bakı Təşəbbüs Qrupu” İctimai Birliyinin fəaliyyəti ilə əlaqədar geniş məlumat verilib, Qoşulmama Hərəkatının koordinasiya bürosu tərəfindən müstəmləkəçiliyə qarşı təşkilatın öhdəliyi haqqında danışılıb, iştirakçılar tərəfindən təmsil etdikləri bölgələrdəki vəziyyətə dair çıxışlar edilib və dekolonizasiya mövzusu ilə bağlı iştirakçılar arasında geniş müzakirələr aparılıb.

*M.ABDULLAYEV*

# İrəvanda iğtişaşlar davam edir

## Müxalifətin “Milli Komitə”si yaradıldı

*NARDAR*



Ermənistanda daxili ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Sentyabrın 19-dan etibarən müxalifət baş nazir Nikol Paşinyanın istefası tələbi ilə etiraz aksiyası keçirir. “Nikol satqındır!” şüarı səsləndirən etirazçılar mübarizəni sona qədər aparacaqlarını iddia ediblər. Lakin Paşinyan sentyabrın 24-də Ermənistan xalqına müraciətində istefa verməyəcəyini bir daha bəyan edib.

Xatırladaq ki, Ermənistan müxalifəti baş nazir Nikol Paşinyanın istefasına nail olmaq üçün “Milli Komitə” yaradıldığını bəyan edib. Keçmiş baş nazir Vazgen Manukyan “Milli Komitə”yə kimlərin başçılıq edəcəyini açıqlayıb. “Biz - Hayk Mamicanyan, Avetik Çalabyan, Andranik Tevanyan, İşxan Saqatelyan və məndən ibarət 5 nəfər “Milli Komitə” yaratdıq. Biz məsələni mümkün qədər qanuni şəkildə həll etməliyik. Biz mümkün qədər tez itaətsizlik aksiyalarına başlamalıyıq”, - deyə keçmiş baş nazir bildirib. O, komitənin tərkibinin genişləndirilməsinin vacibliyini də vurğulayıb: “Həqiqətən, mənim vəzifə tutmaq üçün heç bir ambisiyam yoxdur. Hesab edirəm ki, ümumiyyətlə, keçmiş prezidentlərin də heç biri Ermənistan Respublikasının rəhbəri olmamalıdır”.

Keçmiş baş nazir daha sonra əlavə edib: “Mən xalqımızı geniş itaətsizlik aksiyalarına, tətillərə, dərsləri boykot etməyə, küçələri bağlamağa çağırıram. Amma polislə davaya girməyə ehtiyac yoxdur. Bu toqquşma bizə heç nə vermir, sadəcə olaraq, xalqın gücü qarşısında müqavimət göstərə bilməməlidirlər. Bu, bizim məqsədimizdir”. Manukyan deyib ki, hazırda ölkə rəhbərliyi xarici agentlərin əlindədir: “Hakimiyyət dəyişikliyindən sonra nə baş verəcəyini xalqa izah etmək lazımdır. Bunun üçün müxtəlif partiyaların nümayəndələri öndə olmalıdır. İndi insanların çoxu Nikol Paşinyanın hakimiyyətdə olmasının əleyhinədir, xüsusən də “Artsax”la bağlı son insidentdən sonra. Biz xalqı birləşdirərək irəli getməliyik”.

Mitinq iştirakçıları hökumət binasını mühasirəyə almağa çalışsa da, buna nail olmayıb. Əksinə, hüquq-mühafizə orqanları etirazçılara qarşı sərt tədbirlər görür. Bunun nəticəsi olaraq müxalifət liderlərindən biri - “Ana Ermənistan” blokunun rəhbəri Andranik Tevanyan vətəndaş itaətsizliyi, dövlət çevrilişinə cəhd ittihamı ilə saxlanılıb. Saxlanılanlar arasında ölkənin ikinci prezidenti Robert Koçaryanın oğlu Levon Koçaryan da var. Polislər ona qarşı güc tətbiq edib, asfalt boyunca sürüyüblər. Bununla bağlı görüntülərdə bir neçə polisin Koçaryanın oğlunu polis maşınına sürükləməyə çalışdığı əks olunub. “Ermənistan” blokundan olan deputat İşxan Saqatelyan bildirib ki, polis zorakılığına baxmayaraq, paytaxtda və bölgələrdə itaətsizlik aksiyaları davam edir. Onun sözlərinə görə, bu vaxta qədər 200-ə yaxın adam həbs edilib: “Onların hüquqlarını qorumaqla müxalifətçi deputatlar və vəkillər məşğul olur”.

Yeri gəlmişkən, Ermənistan İstintaq Komitəsinin yaydığı məlumatda aksiya iştirakçılarının daha çox Qarabağ sakinləri olduğu bildirilir: “Əsasən, “Artsax”ın müxtəlif qəsəbələrinin keçmiş sakinləri olan mitinq iştirakçıları mütəşəkkil şəkildə Ermənistan hökumətinin binasının girişində toplaşıblar. Onlar polisin qanuni tələbinə tabe olmaq istəmirlər, ictimai təhlükəsizliyə təhdid yaradan kütləvi iğtişaşlar təşkil ediblər”.

İstintaq Komitəsi onu da bildirib ki, saxlanılan şəxslərlə yanaşı, digər təşkilatçılar axtarılır və tapılaqları təqdirdə həbs olunacaqlar. Xatırladaq ki, ötən gün səhər saatlarında saxlanılanlar arasında “Ermənistan” fraksiyasının deputatı Tadevos Avetisyan, hərbi ekspert Karen Vrtanesyan, jurnalist David Sarkisyan da olub. Lakin sonradan Karen Vrtanesyanla Tadevos Avetisyan azad edilib.

Beləliklə, son vaxtlar İrəvanda etiraz aksiyaları, iğtişaşlar gündəlik həyat tərzinə çevrilib. Müxalifət mitinqlərin davamlı olaraq keçirilməsinə və nəticə əldə edilməsinə çalışır.

# Əli Kərimlinin növbəti xəyanəti

## Bu dəfə antiterror tədbirlərini hədəfə aldı

2020-ci il Vətən müharibəsi dövründə Azərbaycanın qələbəsini həzm edə bilməyən, ermənilərin dəstəkləmək üçün min bir rəngə, min bir dona girən AXCP sədri Əli Kərimli yenə də “iş başındadır”. Vaxtilə cidd-cəhdlə Ermənistanın kapitulyasiya imzalamadığını iddia edən Ə.Kərimli ində də 24 saatlıq antiterror tədbirlərini “hədəfə almağa” çalışır. Antimilli mərkəzlərin yürütməyə çalışdığı çirkin kampaniyanın “sınıq təkəri” funksiyasını yerinə yetirməyə çalışan Ə.Kərimli öz mahiyyətinə uyğun olaraq yalan, qərəzli dezinformasiyalar “istehsal etməklə” nəyəsə nail olmağa çalışır. O, Azərbaycanın 24 saat ərzində əldə etdiyi uğurun miqyasını kiçiltməyə çalışmaqla yanaşı, erməni təbliğatının “yan”daşı olduğunu da isbatlayır. Sosial şəbəkələrdə çirkin təbliğat aparan Əli Kərimli indiki həssas məqamda öz ampluasına “sadiqlik” göstərməklə xəyanətkar olduğunu növbəti dəfə təsdiqləyir. Qarabağla bağlı yayılan xəbərləri gözardı edən, baş verən prosesləri məqsədli şəkildə diqqətə almayan Kərimli əksinə, antitəbliğatla dünya erməniliyinin, onları dəstəkləyən anti-Azərbaycan dairələrin “iş ortağına” çevrilib.

Əli Kərimli yenə də öz “adəti” üzrə xalqın adından danışaraq yalanlarına, qərəzinə, erməni təbliğatçısı olmasına fərqli don geyindirməyə çalışır. Ölkəmizdəki xalq-iqtidar vəhdətindən yaxşı xəbərdar olan xain redikül müxalifət nümayəndəsi öz qara təbliğatını xalqın adının arxasında gizlənməklə həyata keçirməyə çalışır. Bu da təsadüfi deyil. Əli Kərimli bilir ki, Azərbaycan xalqı onu dəstəkləmir - tam əksinə, onun xəyanətləri, satqın əməlləri, ermənilərlə işbirliyində olması hər kəsə aydındır. Bu mənada, Ə.Kərimli özünü həm də ictimai rəyə “sırımağa” çalışır.

Əslində, Kərimlinin antimilli ruhlu bu kimi “fikirləri” təəccüblü görünməməlidir. Çünki bu, həmin Əli Kərimlidir ki, 44 günlük müharibə zamanı əldə etdiyimiz şanlı Qələbəyə də kölgə salmağa çalışırdı. Bu həmin Ə.Kərimlidir ki, Ermənistanın “kapitulyasiyaya məruz qalmadığını” israrla “sübut etməyə” köklənmişdi - halbuki artıq 3 ildir ki, Ermənistanın siyasi rəhbərliyinin aparıcı simaları dəfələrlə 2020-ci ildə kapitulyasiya imzaladıqlarını etiraf edirlər. Hətta baş nazir Paşinyan belə “təslim olmuşuq” deyir. Şuşa Bəyannaməsinə belə qarşı çıxan Ə.Kərimli indiki halda xain mövqeyi ilə yenidən “maliyyə qaynaqlarının” diqqətini cəlb etməyə çalışır. Antiterror tədbirlərinin nəticələrini şübhə altına almağa çalışmaqla Ermənistanın havadarlarının mövqeyindən çıxış edərək separatizmə və separatçılara həm də “mənəvi dəstək” göstərir.

*SADİQ*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Yeni çağırış - Multilinqualizm...

*Yeganə BAYRAMOVA*

Dünyanın dil mənzərəsi olduqca rəngarəng və zəngindir. Artıq 22 ildir ki, hər il sentyabrın 26-da Avropa Dillər Günü kimi qeyd olunur. Həmin təqvim 2001-ci il 6 dekabrda Avropa Şurası tərəfindən təsis edilib. Növbəti il sentyabrın 26-dan etibarən üzv dövlətlər bu günlə əlaqədar müxtəlif tədbirlər təşkil etməyə başlayıblar.

Avropa Dilləri Gününün qeyd edilməsinin əsas məqsədi hər kəsi ikinci və ya üçüncü dil öyrənməyə təşviq etmək, həmçinin bir neçə dilbilmənin mədəniyyətlərarası anlayışı artırdığını aşılamaqdır. Bu qaydalara uyğun olaraq, gənc və yaşlı insanlar bir dil seçməyə və ya mövcud dil bacarıqları ilə xüsusi qürur duymağa təşviq olunur. Həmçinin insanların bir sıra dilləri öyrənməsini asanlaşdırmaq və dilləri təşviq etmək üçün siyasət təşəbbüslərini dəstəkləmək üçün çağırışlar edilir. Bu gün münasibətilə, Avropada uşaqlar üçün tədbirlər, televiziya və radio proqramları, dil dərsləri və konfranslar da daxil olmaqla bir sıra tədbirlər keçirilir.

Avropa Dillər Günü üçün nəzərdə tutulan 36 dildə veb sayt mövcuddur. Saytda yüzlərlə tədbir və fəaliyyət xüsusi təqvimdə qeyd olunur. Avropa Dillər Günü çərçivəsində Avropa və digər qitələrdə baş verən fəaliyyətlər bu saytda, əsasən, məktəblər, universitetlər, dil və mədəniyyət institutları, birliklər və Avropa Komissiyasının tərcümə sahəsindəki ofisləri tərəfindən qeyd olunur.




## Avropa dilləri

Avropada təxminən 225 yerli dil mövcuddur. Bu da, dünya dillərinin təxminən 3%-ni təşkil edir. Avropa dillərinin çoxu Hind-Avropa mənşəlidir. XVIII əsrin sonlarından etibarən Avropanın ən geniş yayılmış dili (həm coğrafi, həm də ana dilində danışanların sayı baxımından) fransız dilini əvəz edən rus dilidir. Yalnız ana dilində danışanları nəzərə alsaq, gündəlik 150 milyon avropalı rus dilində danışır, daha sonra alman dili (təqribən 95 milyon), türk (təqribən 80 milyon), ingilis ve fransız (hər biri 65 milyon), italyan ( 60 milyon), ispan və polyak (hər biri 40 milyon), ukrayn (30 milyon) və rumın (26 milyon). Xarici dil araşdırmalarına gəlincə, hazırda Avropada ən populyar xarici dil ingilis dilidir, ardından alman, fransız, italyan, rus və ispan dilləri gəlir.

## Çoxdillilik-multilinqualizm...

Avropa Birliyinin (AB) “Avropalılar və onların dilləri” sorğusuna görə, AB vətəndaşlarının 56%-i (25 üzv dövlət) ana dilindən başqa bir dildə danışır, lakin 44%-i ana dilindən başqa heç bir dil bilmədiyini etiraf edir. Bununla birlikdə, 28%-i iki xarici dil bilir. AB vətəndaşları arasında 38% ingilis dilini, 14% fransızca və ya almanca, 7% rusca, 5% ispanca və 3% italyanca bildiklərini qeyd edib.

Immiqrasiyanın artması isə Avropada yeni mərhələni - çox dilli Qərb mərhələsini formalaşdırıb. Məsələn: Londonda təxminən 300 dildə danışılır ki, ən populyarları ingilis, fransız, çin, polyak, rus, ispan, portuqal, ərəb, benqal, fars, türk, kürd, berber, hindi, urdu, pəncabi və s-dir. Avropa Birliyi isə daima həm institusional işlərində, həm də vətəndaşları üçün bir məqsəd olaraq çoxdilli siyasətinə sadiqdir. 2002-ci ildə AB-nin Barselonadakı zirvəsində, uşaqların erkən yaşlarından ən azı iki xarici dil öyrənməsini hədəflənib. AB üçün çoxdillilik işçilərin mobilliyi və Avropa iqtisadiyyatı ilə əlaqələndirilir. Avropa Birliyi, Sokrat və Leonardo da Vinci proqramları vasitəsi ilə dil öyrənmə və dil müxtəlifliyini təşviq etmək üçün ildə 30 milyon avrodan çox pul xərcləyir.




# Tərəvəzlər bahalaşır...

## Payız mövsümü “öz sözünü” deyir...

*Yeganə BAYRAMOVA*

Payızın gəlməsi, yağışlı günlərin başlaması ilə piştaxtalardakı bəzi kənd təsərrüfatı məhsullarının, xüsusilə tərəvəzlərin qiymətində artımlar müşahidə edilməkdədir. Belə ki, bazarlarda pomidor, xiyar və bu kimi əsasən, yay məhsulu sayılan tərəvəzlərin qiyməti bir neçə dəfə dəyişib. Qiymətlərin birdən və kəskin bahalaşmasının səbəbi kimi isə son zamanlar havaların yağmurlu keçməsi göstərilir - yağışdan sonra sahələrdə pomidor məhsulu kəskin azalıb.

## 20 gün qabaq...

Satıcılar tərəvəzlərin hazırkı qiymətlərinin hətta qış mövsümündə təklif olunan qiymətlərdən baha olduğunu deyir. Cəmisi 20 gün qabaq pomidorun qiyməti 3 manat, xiyarın qiyməti isə 50-70 qəpik arasında dəyişirdisə, artıq bəzi bazarlarda pomidor 5-6 manata, xiyar isə 2-3 manata təklif olunur. Bir sözlə, cəmisi 20 günə qiymətlərdəki dəyişiklik hiss olunur. Alıcılar da təsdiqləyir ki, cəmi 20 gün bundan əvvəl pomidoru daha ucuz qiymətə alıblar.

Məhsul satışı ilə məşğul olanlar isə hesab edirlər ki, istixanada yetişdirilən pomidorlar satışa çıxarılandan sonra qiymətlərdə tənzimləmə baş verəcək. Belə ki, onlar mövsümlə əlaqədar bağlarda pomidorların qurtardığını, davamlı yağan yağışın isə hazır məhsulları zay etdiyini vurğulayırlar. O da məlum olub ki, pomidorun qiymətindəki artım alıcıların sayına da mənfi təsir göstərib.



## Məhsuldarlıq artırılmalı, istixanalar çoxaldılmalıdır...

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən iqtisadçı Fuad İbrahimovun sözlərinə görə, artıq açıq sahədə becərilən tərəvəz bitkilərinin, məsələn, pomidorun, badımcanın, bibərin və s. tərəvəzlərin sonlanması prosesi gedir: “Məsələn, 2 ay bundan əvvələdək bazarda pomidorun kiloqramı 30 qəpik, 40 qəpik, 60 qəpik idi. Amma bu gün qiymətlər daha fərqlidir. Bu da başadüşüləndir. Payız-qış mövsümündə bitkilər vegetasiya müddətini başa vurduğundan istər-istəməz əksər rayonlarda sahə tərəvəzləri yetişmir. Son zamanlar davamlı yağıntıların baş verməsi. Hətta bəzi regionlara qar yağması isə tərəvəzlərin, o cümlədən meyvələrin müəyyən hissəsini sıradan çıxarıb. Yəni qiymətlərin birdən-birə dəyişməsində təbii hallar da böyük rol oynayır. Düşünürəm ki, bazarlarda kənd təsərrüfatı məhsullarının qiymət artımının qarşısının alınması üçün ən vacib çıxış yolu məhsuladarlığın daha da artırılması, istixanaların daha da çoxaldılmasıdır”.





## “Səbail”in idman direktoru: Avrokuboklara çıxmaq vəzifəsi qoyulmayıb



Premyer Liqanın ilk turlarında əldə etdiyimiz nəticələr gözlənilməz oldu. Sonra komandamız yavaş-yavaş toparlandı və hər oyunda daha yaxşı çıxış etməyə başladı. Bu sözləri AZƏRTAC-a açıqlamasında “Səbail” klubunun idman direktoru Zamiq Hüseynov komandanın cari mövsümdəki çıxışı ilə bağlı danışarkən deyib.

O, mövsümlərarası fasilədə heyətin təxminən 85 faizinin dəyişdiyini bildirib: “Futbolçularımızın çoxu yenidir. Onlara zaman lazım idi ki, komandaya adaptasiya olsunlar. Uyğunlaşma prosesi keçdikdən sonra hər şey qaydasına düşdü. Amma hələ heç nə etməmişik. Birinci dövrə başa çatmadığı üçün çıxışlarımız barədə fikir söyləmək doğru olmaz. Mövsümün sonunda və ya qış fasiləsində nəsə deyə bilərik. Sadəcə, onu deyə bilərəm ki, komandamız oyundan-oyuna daha yaxşı təsir bağışlayır”.

“Səbail” komandasının baş məşqçisi Şahin Diniyev Premyer Liqanın VII turunda “Araz-Naxçıvan”a 1:0 hesabı ilə qalib gəldikləri oyundan sonra keçirilmiş mətbuat konfransında medallar uğrunda mübarizə aparmadıqlarını vurğulayıb. 57 yaşlı mütəxəssisin fikirlərinə münasibət bildirən klub rəsmisi onunla həmfikir olduğunu diqqətə çatdırıb: “Medallar uğrunda yarışmaq üçün bizə kifayət qədər vaxt lazımdır. Bu il əsas məqsədimiz yaxşı oyun nümayiş etdirmək və bacardığımız qədər çox xal toplamaqdır. Komandanın qarşısına avrokuboklara çıxmaq vəzifəsi qoyulmayıb”.

Qeyd edək ki, “Səbail” klubu yeddi turdan sonra 13 xalla turnir cədvəlinin ikinci pilləsində qərarlaşıb.

## Vlad Marinesku: Bakıdakı “Böyük dəbilqə” turniri...




Olimpiya Oyunları yaxınlaşdığı və lisenziyaların tam sürətlə qazanıldığı bir vaxtda biz ilk növbədə Azərbaycana və cüdo federasiyasına təşəkkür etməliyik. Çünki Bakı cüdo ailəsini qarşılayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş yüksəkkeyfiyyətli tədbirə ev sahibliyi etdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Beynəlxalq Cüdo Federasiyasının (IJF) baş direktoru Vlad Marinesku Bakıda Ulu Öndər Heydər Əliyev xatirəsinə həsr olunmuş “Böyük dəbilqə” turniri ilə bağlı hazırladığı məqaləsində yazıb.

O bildirib ki, yarış əla nəticələrlə tarixə düşəcək: “Bakıda qazanılan yerlər, xallar qarşıdakı həftələrdə və aylarda böyük rol oynayacaq. Zaman sürətlə irəliləyir. “Paris-2024” Yay Olimpiya Oyunlarına çox az vaxt qalıb. O an hələ yetişməyib, amma hiss edirik ki, tədbir artıq yaxınlaşır. Bütün nümayəndə heyətləri Paris görüşünə hazırlaşırlar”.

V. Marinesku Bakıdakı yarışın Dünya Cüdo Turunun incisi olduğunu vurğulayıb: “Biz turnir boyu tək tatami üzərində deyil, həm də güclü sosial layihələr vasitəsilə cüdo dəyərlərinin və idman ustalığının heyrətamiz nümayişi ilə tarix yazmışıq”.




## Beynəlxalq turnirdə beş medal

Azərbaycan karateçiləri Fransada keçirilmiş “Marsel Open” turnirində beş medal qazanıblar. Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, bunlardan ikisi qızıl, biri gümüş, ikisi isə bürünc mükafat olub.

Asiman Qurbanlı (+84 kiloqram) və Əzim Rahib (+76 kiloqram) bütün rəqiblərini məğlub edərək, fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Finalda uduzan Rəşid Süleymanov (76 kiloqram) gümüş medalla kifayətlənib. Turqut Həsənov (84 kiloqram) və Mədinə Sadiqova (55 kiloqram) isə yarımfinalda məğlub olaraq üçüncü yeri tutublar.

## Şahruddin oynaya bilməyəcək



Azərbaycan millisinin və “Adana Demirspor”un qapıçısı Şahruddin Məhəmmədəliyev Türkiyə Super Liqasının III turundan təxirə salınmış matçda “Beşiktaş”a qarşı oynaya bilməyəcək. AZƏRTAC xəbər verir ki, buna səbəb ölkə çempionatının reqlamentidir. Qaydalara əsasən, 29 yaşlı qolkiper sözügedən görüşün ilk tarixindən (28 avqust) sonra transfer edildiyi üçün meydana çıxa bilməyəcək.

Təcrübəli qapıçı ilə yanaşı, daha 6 futbolçu analoji səbəbdən İstanbul nəhəngi ilə qarşılaşmanı buraxacaq. Həmçinin 3 oyunçu “Kasımpaşa”ya qarşı son turun matçında (1:2) qırmızı vərəqə aldığı üçün növbəti görüşü buraxacaqlar. Bu isə o deməkdir ki, Adana təmsilçisi “Beşiktaş”la oyunda ümumilikdə 10 futbolçusunun xidmətindən yararlana bilməyəcək. Qeyd edək ki, “Adana Demirspor” - “Beşiktaş” matçı sentyabrın 27-də keçiriləcək.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 7404
Sifariş: 2515
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas